# Sakinlər göstərilən qayğıya görə minnətdarlıqlarını bidirirlər

***Rayon İcra hakimiyyətinin başçısı Səbuhi Abdullayev mütəmadi olaraq rayonun qəsəbə və kəndlərində əhali ilə görüşür, sakinlərin problemləri və onları narahat edən məsələlərlə yaxından tanış olur.***

***Hər görüşdə irəli sürülən təkliflər təhlil edilərək həlli yolları axtarılır, mövcud problemlərin aradan qaldırılması üçün tədbirlər həyata keçirilir.***

## Əmirvan kəndi

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin Əmirvan kəndində səyyar görüş-qəbulu keçirilib.



Görüş qəbulda RİH-nin məsul işçiləri, rayonun hüquq-mühafizə orqanlarının, xidmət təşkilatlarının rəhbərləri və kənd ictimaiyyətinin nümayəndələri iştirak edib.

RİH-nin başçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə aparılan uğurlu islahatlardan, ölkənin sosial-iqtisadi inkişafından, həyata keçirilən layihələrdən, bu istiqamətdə rayonumuzda görülən və icrası nəzərdə tutulan işlərdən danışaraq kənd sakinlərinə ətraflı məlumat verib.



Rayon rəhbəri regionların sosial-iqtisadi inkişafı dövlət proqramı çərçivəsində rayonumuzun yaşayış məntəqələrində, həmçinin Əmirvan kəndində görüləcək işləri tədbir iştirakçılarının diqqətinə çatdırıb. Keçən il əhalinin istifadəsinə verilən 19 kilometrlik Böyük Əmili-Əmirvan yolunun da belə layihələrdən biri olduğunu vurğulayan RİH-nin başçısı bu işlərin digər yaşayış məntəqələrində də davam etdiriləcəyini deyib.

Sonra görüş-qəbulda iştirak edən vətəndaşlar kəndin ümumi problemlərini, həmçinin onları narahat edən şəxsi məsələləri RİH başçısının nəzərinə çatdırıblar.

Sakinlərdən Sərdar Allahverdiyev, Sədrəddin İsmayılov, Nəsibə Mahmudova, Süleyman İsmayılov, Laçın Ağalarov və başqaları rayonumuzda həyata keçirilən sosial layihələrin uğurlu icrasına, xüsusilə Böyük Əmili-Əmirvan müasir şosse yolunun yenidən qurulmasına görə Prezident İlham Əliyevə öz dərin minnətdarlıqlarını bildiriblər.

Onlar çıxışlarında əraziyə qaz xəttinin çəkilməsinə, elektrik xətlərinin təmir edilməsinə, yaşayış məntəqəsinə gələn içməli su kəmərinin yenilənməsinə, uşaq bağçasının təmir olunmasına köməklik göstərilməsini xahiş ediblər.

Qaz xətti çəkilişinin dövlət proqramına uyğun olaraq aparıldığını qeyd edən rayon icra hakimiyyətinin başçısı irəli sürülən digər təkliflərin həlli barədə aidiyyəti təşkilatların rəhbərlərinə müvafiq tapşırıqlar verib.

## Topbağ kəndi

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin növbəti səyyar görüş-qəbulu Topbağ kənd sakinləri ilə keçirilib.

Görüş-qəbulda RİH-nin məsul əməkdaşları, hüquq-mühafizə orqanlarının, xidmət təşkilatlarının rəhbərləri, kənd sakinləri və ağsaqqallar iştirak ediblər.

Tədbirdə rayon icra hakimiyyətinin başçısı ölkəmizdə sosial-iqtisadi sahədə qazanılan uğurlardan, həmin işlərin fonunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bölgəyə göstərdiyi xüsusi diqqət və qayğıdan, eləcə də Qəbələ rayonunda aparılan tikinti-quruculuq işlərindən, əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən ətraflı danışıb.

Sonra kənd sakinləri dinlənilib. Onlar əhalinin rifahının daha da yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərə, aqrar sahəyə göstərilən dövlət qayğısına, yaşayış məntəqəsinin dayanıqlı rabitə, fasiləsiz elektrik enerjisi, içməli su ilə təchiz olunmasına, kəndi rayon mərkəzi ilə birləşdirən Böyük Əmili-Əmirvan yolunun yenidən qurulmasına və digər sahələrdə görülən işlərə görə ölkə başçısı İlham Əliyevə öz dərin minnətdarlıqlarını bildiriblər.



Çıxış edənlərdən İradə Səmədova, Aləddin Baxışov, Absəddin Yediyarov, Dilqəm Abdullayev, Fənarə Alışanova, Qnyaz Məmmədov və başqaları əraziyə təbii qaz xəttinin çəkilməsini, yaşayış məntəqəsində işıq xətlərinin təmir olunmasını, ərazinin suvarma suyu ilə təchizatının yaxşılaşdırılması üçün əlavə tədbirlərin görülməsini, kənddəki futbol meydançasında müvafiq avadanlıqların quraşdırılmasını və Topbağ kəndini Zalam yolu ilə birləşdirən məsafənin asfaltlaşdırılmasını xahiş ediblər.



Görüş-qəbulda RİH-nin başçısı vətəndaşlar tərəfindən qaldırılan məsələlərlə bağlı rayonun əlaqədar təşkilatlarının rəhbərlərinə müvafiq tapşırıq və göstərişlər verib.

## Zarağan kəndi



Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin daha bir səyyar görüş-qəbulu Zarağan kənd sakinləri ilə keçirilib.

Görüş-qəbulda RİH-nin məsul işçiləri, hüquq-mühafizə orqanlarının, xidmət təşkilatlarının rəhbərləri və kənd sakinləri iştirak ediblər.

Tədbirdə rayon icra hakimiyyətinin başçısı Prezident İlham Əliyevin rəhbərliyi altında 2019-cu ildə ölkə vətəndaşlarının rifahının yaxşılaşdırılması istiqamətində aparılan islahatlardan, sosial-iqtisadi sahədə qazanılan uğurlardan, bölgəyə göstərilən xüsusi diqqət və qayğıdan, həmçinin Qəbələ rayonunda aparılan tikinti-quruculuq işlərindən, əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən layihələrdən danışıb.

Yaranan problemlərin vaxtında həlli ilə bağlı bütün zəruri addımların atıldığını vurğulayan rayon icra hakimiyyətinin başçısı hər bir yaşayış məntəqəsində, o cümlədən Zarağan kəndində əhalini narahat edən məsələlərin həlli istiqamətində həyata keçirilən tədbirlərin, infrastruktur layihələrinin bundan sonra da davam etdiriləcəyini diqqətə çatdırıb.



Sonra sakinlər dinlənilib. Çıxış edən vətəndaşlar əhalinin rifahının yaxşılaşdırılması sahəsində görülən bütün işlərə görə ölkə başçısı İlham Əliyevə öz dərin minnətdarlıqlarını ifadə ediblər.

Kənd sakinlərindən Siracəddin Həmidov, İlqar Soltanov, Kamran Əzizov, Əfşan Həşimova və başqaları çıxışlarında yeni artezian quyusunun qazılmasını, Zarağan-Aydınqışlaq yolunun asfaltlaşdırılmasını, yeni yaşayış məntəqəsinə qaz xəttinin çəkilməsini, 1 nömrəli kənd tam orta məktəbinin əsaslı təmir olunmasını xahiş ediblər.

Görüş-qəbulda rayon icra hakimiyyətinin başçısı həlli RİH-nin səlahiyyətlərinə aid olan problemlərin icrası ilə bağlı aidiyyəti təşkilatların rəhbərlərinə müvafiq göstərişlər verib, mərkəzi icra hakimiyyətlərindən asılı olan təkliflərlə əlaqədar isə həmin qurumlara müraciət olunacağını bildirib.

**Səhifənin materiallarını hazırladı:**
**Varis YAQUBOV.**
**İlkin Vəlizadə (foto).**
**"Qəbələ"**